Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Heydər Əliyevin azərbaycançılıq ideologiyası - dövlət və ictimai mənafelərin vəhdət nöqtəsi...

## İctimai və dövlət maraqlarının müdafiəsi

**Azərbaycan vətəndaşlarının dövlətinə, cəmiyyətinə, milli ideologiyasına bağlı olduğu heç kəsdə şübhə doğurmur. Əlbəttə, dövlət və ictimai maraqların qorunması, bu iki vacib istiqamətin vəhdət təşkil etməsi üçün böyük zaman tələb olunub.**

Biz dövlət və ictimai maraqların müdafiəsi işini qurmaq üçün çox çətinliklərdən keçmişik. Əsl vətəndaş dövlət maraqlarının müdafiəsiçisi kimi çıxış etməlidir, dövlət də ictimai maraqların qorunması üçün xüsusi mexanizmlərə malik olmalıdır. Müsbət haldır ki, Azərbaycanda bu prosesin yol xəritəsi olan azərbaycançılıq ideologiyası mövcuddur. Dövlət və ictimai maraqların çuğlaşdığı, qaynayıb qarışdığı nöqtə isə azərbaycançılıq ideologiyasıdır ki, onun da əsas inkişafı, təşəkkülü, praktik təcəssümü ulu öndər Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Mübağiləsiz deyə bilərik ki, Azərbaycanda dövlət və ictimai maraqların mükəmməl vəhdəti Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyasına əsaslanır. Müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyev dövlətimizin varlığını, xalqımızın bütövlüyünü qorumaqla bu sahəyə böyük töhfə verdi. Ekspertlər qeyd edir ki, Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyasının əsasını məhz ictimai və dövlət maraqlarının vəhdəti təşkil edir. Ekspertlərə görə, bu baxımdan ölkəmizdə ictimai və dövlət maraqlarının bir-birini tamamlaması, bu maraqların bir-biri ilə üst-üstə düşməsi heç də təsadüfi deyil.

### Azərbaycançılıq ictimai və dövlətçilik maraqlarının vəhdəti kimi...

Azərbaycan xalqı tarixən dövlətə, dövlətçiliyə bağlı xalq olub və bu bağları günü-gündən daha da güclənir. Qeyd etdiyimiz kimi, dövlət və ictimai maraqların müdafiəsi istiqamətində Heydər Əliyevin yaratdığı nümunələr bizə bir örnəkdir. O Azərbaycana rəhbərlik etdiyi dövrlərdə daim xalqın mənafeyindən çıxış edib, milli-mənəvi dəyərlərin, milli ruhun qorunması, kadrların milliləşdirilməsi, azərbaycançılıq ideologiyasının sistem halına salınması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirib. Şübhəsiz ki, Azərbaycançılığın da bir ideologiya kimi səmərə verməsi xalq, ictimaiyyət maraqları ilə vəhdət təşkil etməsindən keçir. Ekspertlər qeyd edirlər ki, əgər H.Əliyevin hələ respublikamıza birinci rəhbərliyi dövründə Azərbaycanın sosial-iqtisadi, mədəni yüksəlişi üçün həyata keçirilən tədbirlər, milli şüurun oyanışı istiqamətində istər açıq, istərsə də gizli şəraitdə görülən işlər olmasaydı, bu gün Azərbaycanın müstəqil xəttə malik suveren dövlət kimi mövcudluğundan danışmaq çətin olardı. Bu barədə fikir irəli sürənlər qeyd edirlər ki, ötən əsrin sonlarına doğru çoxəsrlik tarixi mücadilənin yekunu kimi dövlətçiliyini bərpa edən, azadlığa qovuşan Azərbaycan xalqının milli inkişaf yolunun və ideologiyasının formalaşması da məhz H.Əliyevin müstəqil respublikamıza rəhbərliyi dövrünə təsadüf edir. Ekpertlərin yazdıqlarına görə, bütün ruhu, qanı, canı ilə özünü azərbaycanlı sayan ümummilli lider cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlər görərək ümumxalq birliyinin dərin politoloji və nəzəri əsaslarını irəli sürdü.



### "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır"

Azərbaycan xalqının dövlətçiliyə bağlı ruhda inkişafına xüsusi önəm verən H.Əliyev hər bir xalq üçün onun milli mənsubiyyətinin qürurverici olduğunu vurğulayıb. Ulu öndər "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" deyib. Ekspertlərin yazdıqlarına görə, Heydər Əliyev azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəyliyini, bütövlüyünü yaratdı.

Heydər Əliyevin azərbaycançılıq ideologiyasının ictimai və dövlət maraqlarının ifadəsinə verdiyi töhfələr çox böyükdür. Alimlər qeyd edirlər ki, əlbəttə, xalqımızın, dövlətimizin varlığını ifadə edən rəmzlərə, adət-ənənələrə, ali mənəvi dəyərlərə yüksək sədaqət, ana dilinə məhəbbət, bəşəri ideallara hörmət azərbaycançılığın milli mahiyyətini açmaqla yanaşı, onun humanist səciyyə daşıdığını göstərir.

Professor Nizaməddin Şəmsizadə yazırdı ki, Heydər Əliyev Azərbaycan tarixinin yetişdirdiyi ən nadir simalardan biri, türk dünyasının və ümumən, sivil dünyanın qüdrətli şəxsiyyətidir. "...Ümummilli lider Heydər Əliyev Azərbaycan üçün çox böyük tarixi nailiyyətlər, tarixi uğurlar və tükənməz dövlətçilik təcrübələri - müstəqil Azərbaycan, əbədi azadlıq qoyub getdi. Onun milli-mənəvi taleyimiz, gələcəyə doğru inkişafımız üçün yadigar qoyduğu sərvətlərdən biri də azərbaycançılıq ideologiyası idi..."

Bu gün Azərbaycanda dövlətçilik maraqları ilə ictimai maraqlar bir-birini tamamlayır. Xalq və dövlət, ordu birliyi nəticəsində torpaqlarımız işğaldan azad olundu. Əlbəttə, cəmiyyət, dövlət inkişaf etdikcə bu sahədə biz daha çox tərəqqinin şahidi olacağıq. Dövlətimiz gücləndikcə cəmiyyətimiz də inkişaf edəcək və biz milli birliyimizi, cəmiyyət və dövlət birliyini hər zaman qoruyacağıq.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**